**Avropada Təhlükəszilik və Əməkdaşlıq Təşkilatı**
**Bakı Ofisi**
**Maliyyə-İnzibati Şöbə**
Landmark III, Nizami küçəsi 96, AZ1010 Bakı, Azərbaycan

Tarix: 25 May 2010

**Layihə Təkliflərinin Qəbulu**
**No. AZE 8/2010**
**Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti (TƏMVF) Kiçik Qrantlar Proqramı**

Avropada Təhlüikəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Ofisinin (bundan sonra "ATƏT" adlandırılacaq) Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti (TƏMVF) Kiçik Qrantlar Proqramı vətəndaş cəmiyyəti təşkilatlarının ətraf mühit və təhlükəsizlik sahəsindəki problemlərlə bağlı təşəbbüslərini dəstəkləmək məqsədilə layihə təkliflərinin qəbulunu elan edir.

TƏMVF-Azərbaycan Kiçik Qrantar Proqramı aşağıdakı ətraf mühit və təhlükəsizlik sahələrindən birini əhatə edən vətəndaş cəmiyyəti fəaliyyətlərinə maksimum dəyəri 12,000 AZN olan qrantlar ayırır: təbii ehtiyatların dayanıqlı idarə olunması; torpaqların deqradasiyaya uğramasının qarşısının alınması; təbii və texnogen fəlakətlər; zərərli tullantıların və kimyəvi maddələrin idarə olunması; dağ-mədən hasilatı; ekoloji cəhətdən dayanıqlı nəqliyyat; iqlim dəyişikliyi; enerji.

Layihə təkliflərinin qəbulu ilə bağlı elandan əlavə bu sənədə həmçinin aşağıdakılar daxildir:

| | |
|---|---|
| Bölmə I: | TƏMVF Proqramı haqqında məlumat |
| Bölmə II: | Kiçik qrantlar üçün mövzular |
| Bölmə III: | Proqramda iştirak etməklə bağlı tələblər |
| Bölmə IV: | Qrant üçün müraciət etməklə bağlı qaydalar |
| Bölmə V: | Layihə təkliflərinin qiymətləndirilməsi və seçimi |
| Bölmə VI: | Kontrol siyahı |
| Əlavə I: | TƏMVF layihə təklifi və büdcə formatı |
| Əlavə II: | Potensial İcraçı Tərəfdaş üçün Uyğunluq Şəhadətnaməsi (İngilis dilində) |
| Əlavə III: | Razılaşma Forması (İngilis dilində) |

Layihə Təkliflərinin Qəbulu nəticəsində əldə edilmiş istənilən razılaşma əlavədə verilmiş Razılaşma Forması ilə tənzimlənəcəkdir.

Layihə təklifləri aşağıdakı ünvana çatdırılmalıdır:

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT)**
**Bakı Ofisi**
**Maliyyə-İnzibati şöbə**
**Landmark III, 2-ci mərtəbə, Nizami küç. 96**
**AZ1010 Bakı, Azərbaycan**

Layihə təklifləri üzərində "**No. AZE 8/2010 – Təhlükəsizlik və Ətraf Mühit üzrə Vətəndaş Fəaliyyəti Proqramı üçün Təklif – 14 iyun 2010-cu il, 12:00-dan (yerli vaxt) əvvəl açmayın**" sözləri yazılmış və möhürlənmiş zərfdə **14 iyun 2010-cu il, saat 12:00-dan (GMT+4) gec olmamaqla** təqdim edilməlidir.

Elektron poçt və ya faksla göndərilmiş layihə təklifləri qəbul edilməyəcəkdir. Qiymətlər AZN-lə göstərilməlidir.

Layihə Təkliflərinin Qəbulu ilə bağlı sənədlər ATƏT-in internet saytından (**http://www.osce.org/tenders/**) əldə edilə bilər.

Sual və ya sorğularınızla ATƏT-in Bakı Ofisinin İqtisadi və Ətraf Mühit Şöbəsinin əməkdaşı Zəhra Əhmədovaya zahra.ahmadova@osce.org elektron ünvan vasitəsilə müraciət edə bilərsiniz.